# İşğaldan azad olunmuş ərazilər mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilir

***Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun işğalçı Ermənistan üzərindəki tarixi qələbəsi ölkəmizin gücünü beynəlxalq aləmdə bir daha nümayiş etdirdi. Azərbaycan Silahlı Qüvvələrinin hər bir üzvü bu müharibədə yüksək peşəkarlığa, qibtəolunacaq Vətən sevgisinə malik olduğunu bütün dünyaya əyani şəkildə göstərdi və işğal altında olan torpaqlarımızı öz qüvvəsi ilə azad etdi. Bu gün Azərbaycan bayrağının Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə və Laçında dalğalanması Ali Baş Komandanımız İlham Əliyevin yüksək və məğlubedilməz sərkərdəlik qabiliyyətinin, qəhrəman ordumuzun qüdrətinin, iqtidar–xalq–ordu monolit birliyinin və həmrəyliyinin parlaq nümunəsidir.***




Artıq dünya birliyi də Ermənistanın hikkələrinə, işğalçılıq siyasətinə son qoyulduğunun şahididir. 2020-ci il noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin, həmçinin Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları üçtərəfli bəyanat da bunu təsdiqlədi. Bu bəyanat Ermənistanın məğlubiyyətini rəsmiləşdirdi və ermənilərin "böyük Ermənistan" dövləti yaratmaq ideyasının üstündən birdəfəlik xətt çəkdi.

Otuz il düşmən əsarətində olan həmin ərazilərdə hazırda yenidənqurma, bərpa-quruculuq işləri geniş vüsət alıb. Yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzur əvvəlkindən də gözəl, cazibədar olacaq. İşğaldan azad edilən ərazilər tədricən nüfuzlu beynəlxalq təşkilatların öz tədbirlərini keçirdikləri məkana çevrilir. Bu, həm də Azərbaycanın sülhsevər, sabit ölkə olduğunun göstəricisidir.

Müharibə başa çatandan bir həftə sonra Prezident İlham Əliyev və Birinci-vitse prezident Mehriban xanım Əliyevanın ilk dəfə təməlini qoyduqları obyektlərin indi sayı-hesabı yoxdur. Uzun illərdən sonra ilk dəfə Şuşada, Cıdır düzündə beynəlxalq musiqi festivallarının, poeziya günlərinin, eyni zamanda, rəsmi tədbirlərin, Milli Məclisin komitə iclaslarının keçirilməsi tarixi qələbəmizin bariz nümunələridir.

Qarabağda beynəlxalq tədbirlər keçiriləndə qədər dünyanın aparıcı kütləvi informasiya vasitələrinin, QHT nümayəndələrinin, siyasi partiya sədrlərinin, həmçinin ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus əməkdaşlarının, o cümlədən respublikamıza rəsmi səfərlərə gələn dövlət və hökumət nümayəndələrinin Şuşaya, həmçinin işğaldan azad edilmiş digər ərazilərimizə səfərləri erməni vandalizmi haqqında tam təəssürat yaradırdı. Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verildikdən sonra işğaldan azad edilmiş rayonlara gələn əcnəbi qonaqların sayı daha da çoxaldı. Yeri gəlmişkən xatırladaq ki, qısa vaxt ərzində tikilib istifadəyə verilmiş bu aeroportun ilk qonağı qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oldu. Hörmətli qonağın Şuşaya, Cıdır düzünə ilk səfəri əsl toy-bayrama çevrildi. Səfər çərçivəsində Şuşada Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa Bəyannaməsini imzalamaları dünyada böyük əks-səda doğurdu. Şuşa Bəyannaməsi tarixi-siyasi əhəmiyyət kəsb edir. Qardaş ölkə Prezidentinin Ermənistanın işğalından azad edilən, Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa şəhərinə səfər etməsi və iki dost, qardaş dövlət arasında Müttəfiqlik münasibətləri haqqında Bəyannamə imzalaması mühüm tarixi hadisə kimi yaddaşlara əbədi həkk olundu. Eyni zamanda, iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsası qoyuldu.

2021- ci il noyabrın 7-də VIII Bakı Qlobal Forumu çərçivəsində "Mədəni irsin qorunması" mövzusunda panel iclasının Şuşada keçirilməsi tədbir iştirakçılarının da ürəyincə oldu. İclas Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin moderatorluğu ilə baş tutmuşdu. Tədbir başa çatdıqdan sonra nümayəndələr Cıdır düzünü, Yuxarı və Aşağı Gövhər Ağa məscidlərini, eləcə də şəhərin digər tarixi yerlərini ziyarət etdilər. Qonaqlara işğal dövründə Şuşanın məruz qaldığı vandalizm aktları, həmçinin şəhər azad ediləndən sonra burada aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verildi.

Azərbaycan,Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin VII üçtərəfli iclasının Şuşa şəhərində keçirilməsi də maraqla qarşılandı. Artıq qonşu dövlətlərin parlamentariləri də öz tədbirlərini Şuşada keçirməyi qərara alıblar. Toplantıda hər üç ölkənin parlamentləri arasında münasibətlərin daha da dərinləşdirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsinin məhz Şuşada aprılması böyük əhəmiyyət kəsb edirdi. Daha sonra parlamentarilər Şuşa şəhərindəki bir sıra tarixi-mədəni abidələri, maraqlı yerləri ziyarət etdilər.

Şuşa tədricən dünyanın diqqət mərkəzinə çevrilir. Bu qədim Azərbaycan diyarında – Şuşa şəhərində Azərbaycan–BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantının keçirilməsi artıq bu şəhərin əvvəlki şöhrətini geri qaytarır. Bu fakt həm Ermənistana, həm də dünya erməniliyinə "Qarabağ Azərbaycandır!" mesajı idi. Tədbirdə Azərbaycan Respublikasının yüksək səviyyəli dövlət və hökumət rəsmilərinin, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisinin, həmçinin bu nüfuzlu təşkilatın Azərbaycandakı qurumlarının rəhbər şəxslərinin iştirakı beynəlxalq ictimaiyyət tərəfindən maraqla izlənildi. Toplantı iştirakçılarının əvvəlcə təyyarə ilə Qarabağın hava qapısına – Füzuli Beynəlxalq Hava Limanına gəlmələri və aeroportla yaxından tanış olduqdan sonra Zəfər yolu ilə Şuşaya səfər etmələri tədbir iştirakçılarında xoş ovqat yaratdı.

Toplantı iştirakçılarına bildirildi ki, Azərbaycan BMT-yə qoşulduqdan, təxminən, iki ay sonra Şuşa Ermənistan silahlı birləşmələri tərəfindən işğal olundu. Azərbaycanlılar öz şəhərindən, doğma ata-baba yurdlarından didərgin salındı. Ancaq 44 günlük Vətən müharibəsindən sonra Şuşa azad edildi. Bu gün Şuşa öz simasını günbəgün dəyişən və Azərbaycanın sürətlə inkişaf edən, yenidən qurulan, əcnəbi qonaqlara qucaq açan bir şəhərinə çevrilib.

Azərbaycanın mədəniyyət paytaxtında keçirilən daha bir tədbir – Dünya Azərbaycanlılarının V Qurultayı dünya ictimaiyyətinin diqqətini yenidən işğaldan azad edilmiş ərazilərə cəlb etdi. Zəfər Qurultayı adlanan bu tədbirdə Prezident İlham Əliyevin söylədiyi nitqində verdiyi mesajlar dünya mətbuatının da diqqətindən yayınmadı. Dünyanın aparıcı KİV-də dərc olunan çoxsaylı informasiyalarda Şuşa Qurultayının tarixi əhəmiyyəti vurğulanır. Qeyd edilir ki, bu qurultayda Azərbaycan diasporu qarşısında yeni vəzifələr qoyulub, xaricdəki azərbaycanlıların növbəti beş ildə fəaliyyəti üçün Yol xəritəsi müəyyənləşdirilib. Həmçinin Azərbaycan Prezidenti tərəfindən Ermənistana və onun himayədarlarına mühüm mesajlar verilib. Dünya azərbaycanlılarının Şuşada bir araya gəlməsi Azərbaycan diasporunun gələcək fəaliyyətini dinamik inkişafda saxlamaq üçün mənəvi stimul rolunu oynayacaq.

Qurultay iştirakçıları Dünya Azərbaycanlılarının V Qurultayının məhz Şuşada keçirilməsinin çox böyük tarixi əhəmiyyətə malik olduğunu bildirirlər. Bu qurultayda iştirak edənlər işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri ilə yaxından tanış oldular. Bu, çox vacib məsələdir. Dünyanın müxtəlif ölkələrini təmsil etmiş qurultay iştirakçıları, eləcə də əcnəbi qonaqlar işğaldan azad edilmiş ərazilərdə gördükləri barədə yaşadıqları ölkələrin ictimaiyyətini məlumatlandırıblar. Bu, böyük strateji planlardan xəbər verir. Təbii ki, ölkəmiz bu yolla strateji məqsədlərinə daha tez çatacaq.

"Qlobal dünya nizamına təhdidlər" mövzusunda keçirilən IX Qlobal Bakı Forumunun panel iclasının öz işini mədəniyyət paytaxtı Şuşada davam etdirməsi beynəlxalq tədbirlərin davamı oldu. Panel iclasında azad olunmuş ərazilərin minalardan təmizlənməsi, aparılan quruculuq işləri geniş müzakirə edildi. Sayca 9-cu dəfə keçirilən Qlobal Bakı Forumunun iştirakçılarının Qarabağ iqtisadi rayonuna – Füzuli və Şuşa şəhərlərinə səfərləri rəmzi məna daşıyırdı. Səfər çərçivəsində qonaqlar Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanına eniş etdilər. Qonaqlar Şuşada keçirilən panel iclasının xüsusi əhəmiyyətini diqqətə çatdırdılar və bunun əlamətdar hadisə olduğunu bildirdilər. Forum iştirakçılarına Qarabağ İqtisadi rayonuna daxil olan –işğaldan azad edilmiş ərazilərdə aparılan bütün bərpa işlərinin məhz Azərbaycanın öz vəsaiti hesabına həyata keçirildiyi barədə məlumat verildi.

Panel iclası zamanı, həmçinin bu ilin sentyabrında Zəngilan aeroportunun tikintisinin başa çatdırılacağı, rayonun Günəş enerjisi və ekoturizm üçün böyük potensiala malik olduğunu bildirilib. Qlobal forumun iştirakçıları Şuşanın işğaldan azad edilərək burada bərpa-yenidənqurma işlərinin aparılmasını Azərbaycanın uğuru kimi qiymətləndiriblər. Forum bitdikdən sonra iştirakçılar Şuşa Şəhər İcra Hakimiyyətinin qarşısında saxlanılan güllələnmiş heykəllər, tarixi mədəni abidələr və ərazidə aparılan yenidənqurma işləri ilə də tanış olublar.

İşğaldan azad edilmiş digər ərazilər də beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Məsələn, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının təşkilatçılığı ilə bu il mayın 6-da Tərtər rayonunun Suqovuşan qəsəbəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən "Prezident kuboku-2022" reqatasına start verildi. Otuz illik işğaldan sonra Suqovuşan Su Anbarında keçirilən ilk beynəlxalq idman yarışına Azərbaycanla yanaşı, Türkiyə, Gürcüstan, Moldova və Özbəkistanı təmsil edən 100-dən artıq idmançının qatılması bütün dünyaya ismarıc olaraq onu göstərdi ki, bu ərazilərin dirçəlməsi və iqtisadi inkişafı ilə bağlı proseslər digər sahələrlə paralel şəkildə gedəcək. "Prezident kuboku-2022" reqatası, eyni zamanda, Azərbaycan xalqının və dövlətinin öz torpağının əsl sahibi və ona necə bağlı olduğunun təcəssümüdür.

Böyük ruh yüksəkliyi şəraitində keçən və iştirakçılara xoş təəssüratlar bağışlayan bu yarışlar dünya ictimaiyyətinin Azərbaycan reallıqlarına, onun sülhsevər siyasətinə, xalqımızın mədəniyyətinə, milli-mənəvi dəyərlərinə, tolerantlıq ənənələrinə diqqətinin yönəldilməsi, habelə ölkəmizin işğaldan azad edilmiş ərazilərinin böyük turizm imkanlarının nümayişi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Artıq Zəngilan rayonunda da ilk beynəlxalq tədbir keçirilib. "Ağıllı kənd" yaşayış massivi beynəlxalq su konfransına evsahibliyi edib. Bir neçə gün öncə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının və Qarabağ Dirçəliş Fondunun dəstəyi ilə Zəngilan rayonunun Ağalı kəndindəki "ağıllı kənd" yaşayış massivində "Su ehtiyatlarının davamlı idarə edilməsində tərəfdaşlığın və fəaliyyətin təşviq edilməsi" mövzusunda beynəlxalq konfrans keçirilib.

Azərbaycanda akkreditə olmuş diplomatik korpus və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin, ekspertlərin iştirakı ilə hibrid formatda keçirilən tədbirdə su ehtiyatları sahəsində davamlı inkişafın məqsəd və hədəflərinə nail olmaq üçün səylərin səfərbər edilməsi, bu məsələnin qlobal və regional həlli məqsədilə beynəlxalq səviyyədə dialoqun yaradılması, transsərhəd kontekstdə tərəfdaşlığın qurulması kimi aktual istiqamətlər müzakirə mövzusu olub.

Ermənistan tərəfindən törədilmiş ekoloji terror, təbiət obyektlərinə dəymiş ziyan, Oxçuçayın və digər su hövzələrinin bədnam qonşu tərəfindən vəhşicəsinə çirkləndirilməsinin davam etdirilməsi, ekoloji terrorun fəsadlarının aradan qaldırılması və bölgənin ətraf mühitinin yaxşılaşdırılması mövzuları ilə bağlı məsələlər iştirakçıların diqqətinə çatdırılıb. Beynəlxalq konfrans çərçivəsində diplomatik korpus nümayəndələri "ağıllı kənd"də yaradılan infrastruktura da tanış olublar.

Qarabağ və Şərqi Zəngəzurda beynəlxalq tədbirlərin keçirilməsi getdikcə daha geniş vüsət alır. Bu il Ağdam şəhərində Milli Şəhər Forumunun keçirilməsinə dair ilkin razılıq əldə olunub. Milli Şəhər Forumunun Ağdamda keçirilməsi Azərbaycanın ərazilərin bərpasına dair təcrübəsini bölüşməyə imkan verəcək. Azərbaycanın postmüharibə dövründə ərazilərin bərpasına dair təcrübəsini Ağdamda keçiriləcək forumda bölüşmək və digər ölkələrin bu təcrübədən faydalanmasına şərait yaratmaq mümkün olacaq.

Göründüyü kimi, işğaldan azada edilmiş ərazilərdə qısa müddətdə həyata keçirilən mühüm əhəmiyyətli layihələr həmin əraziləri beynəlxalq tədbirlərin keçirildiyi məkana çevirib. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur, həm də turizm zonası kimi diqqəti cəlb edir. Artıq dünya ictimaiyyəti tam inanır ki, Qarabağ Azərbaycandır!

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 8 iyul.- S.5.